DƏRGİDƏ KİTAB



Əhməd ƏLƏSGƏR

# Memuar

## REBEKKA

Van Qoqun kəsilən qulağına and olsun,
Arxamca dediyin bütün "gəl"ləri eşidirəm,
Mənə olan nifrətinin səsi
Dodaqlarını bürüyür.
Meyvəsindən günah dişlədiyimiz
Alma ağacı da çürüyür, Rebekka.
Dünən yenə masadakı çərçivədən "gəl" çağırırdın,
Mən şəkilləri eşidirəm;
Dodaqlarının qırmızısı döşəməyə dağılırdı...

Bildin hansı şəkil?
– Sol qolunla dünyanı qucaqlamışdın,
Gözlərin sonuncu çağırışını edirdi
Açmağa gecikdiyim telefon zəngi kimi.
Sağ qolunu məscidin divarından asmışdın,
Heç nəyə yaramırdı – Çexovun tüfəngi kimi...

Əllərim Antarktidadan daha soyuqdu,
Ovuclarımda buz salxımına dönüb
Siqaretimin qullabından oğurladığım tüstü
Keçdiyin yollardan qəsdən keçsəm də,
Toqquşmamaq istəyim –
Gəmiçinin aysberq qorxusundan da pisdi.
Məncə, elə susmağım
Əsrin ən yaxşı minacatıdı.
Aramızdakı münasibət
Şimal Buzlu okeanının plagiatıdı, Rebekka...

Mən bir az getməyindən narazıyam,
Bir az da darıxa bilməməyindən,
Yoxluğun da dağ boydadı.
Zirvəsində bir göyərçin sülh axtarır
– Qanadı yoxdu –
Özümü atmağımın da adı yoxdu,
Bilirəm ki, tutacam gəlməməyindən...

Bir gün yaşamaq üçün
Qəpiklərimizə güllə atacağıq,
Muğayat ol ölməməyindən, Rebekka.

## SEVGİSİZLƏR GÜNÜ

İçimdə lalların orkestri alqışlanır
korların gözlərini qırpmağıyla.
Əziz Valentin,
evimin başıma uçması
qapını çırpmağıyla eyni günə düşdü.
Balaca hədiyyə qutusunda
arzularım böyümüşdü...
Həyatda ölümdən başqa,
yeniliklər də var...
Özü də bilmədiyimiz qədərdi.
Müqəddəsliyinə geciksəm də
6 dəqiqə yarım,
Benedikt, Henrini kral kimi tanıdı,
o isə zəngimi açıb,
"buyurun, kimdi" deyə –, cavab verdi,
Kaponenin rəqibi qətlə yetirildi,
mənimsə xəyallarım...

Artıq
evimizi dəyişsək də,
qonaqlar dəyişməyəcək.
Gəlib-gedənə qapı açmaqdan
açarımızı itirdik.
Birimiz hamımızı itirdik
"Zirvə" arzusuyla qalxsaq da,
yıxıldıq göydələndən.
Paklar diyarından barıt qoxusu gələndən
"hindi"lər Avropaya inteqrasiyadan danışdı.
Bircə onun
kinini güllələyə bilmədik,
müharibələr barışdı
– ölmədik –
Məni nə bahalı içkilər sərxoş etdi,
nə qadağan olunmuş narkotik vasitələri.
Aludəçi
hər gün gözümün önündən keçir,
gözləri mavi,
donu qırmızı,
saçları yaşıl,
gecənin cismləriylə daranmış...
"Onu düşünməyim" hər qadının xoşuna gəlir,
deyəsən, əcdadları
Rost çayının ətrafında yaranmış.

Atam əməliyyatdaykən
anam demişdi ki,
qayıdır, hamı qayıdır...

Əslində ondan da çox şey istəmirəm
və mən də bilirəm ki:

Adları sinonim olan
bütün xoşbəxtliklər barmaq sayıdı.
Onları da
barmaqları qapı arasında qalanlar sayır.
Bu tərəflərə yolu düşə –
dodaqları əsə-əsə deyə ki,

## MƏLİK YAŞAYIR

Yenə monoton gözləntilər,
pəncərələr açıq,
otaqlar süs...
Umduğum yerdən
bıçaqlanacağımı düşünməmişdim...
Öpdüyü dodaqlarımdan
bu sallandı:
"Sən də mi, Brut?"

İndi ən lazımsız anda gəlib
sual vermək həyəcanıyla
baxır gözlərimin içinə:
Pəncərədən tullanmaq istəyəndə
dizlərini qoruyan qız haqqında nə deyə bilərsən?

– Heç nə –

Bu yaxınlarda yazılmağa başladı
dilimizin ucundakı "uzaqlıq" janrı...
Sən qərar ver!
Mən niyə?
Qara dərili birini görüb
gülən birinə
yanımda ağ gəlinliklə
ağ günə çıxmağı arzulayım ki, Tanrı?

## UNUTMADIQLARIM

Biz uşağlımızdan
50 kilometr uzaqlıqda böyüdük.
Qollarımız –
çəyirtkə ayaqlarından arıq
Ailə bədbəxtçiliyimiz-
dünyaya gəlməyimizdən çevik...
Bir gün güzgünün önündə
dodağımızın üstünə bığ,
altına saqqal çəkdik;
uşaqlıqda böyüdük.

Hər ay daxılımızı
telefon arzusuyla sındırsaq da,
ən çoxu 10 qəpik düşürdü,
o da bir gilə siqaret almağa,
olmayanda bapbalaca hünərimiz
babamızın cibindən oğurlamağa çatardı.
Nənəmiz ölmək istəməzdi
nə də, atamız anamızı söyəndə
"qeyrət damarı"mız tutardı.
Evə gecikmək üçün
avtobus gözləyərdik
Arxa oturacaq zarafatları:
"Dost alıb, düşmən verəcəyəm"
"düş, mən verəcəyəm"
Özümüzü yox,
zarafatlarımızı gülməli bilirdik.
Onda saflığımız vardı,
"Fəryad" filminin "düşmən dəstəsi"ni,
həqiqətən də, erməni bilirdik.

15 yaşa çatdıq.
Allahın unutduğu tinlərdə
siqaret yandıra-yandıra.
15-də də uğursuzluq sindromu
14-dən qalmışdı.
Bir gün məhəllənin bütün babaları
eyni gündə öldü.
Adına güldüyüm Aleksandra
3 bağ evi,
3 şirkət,
3 mərtəbəli villa qaldı,
mənimkindənsə adət-ənənə...
Bir də Kafkadan novella qaldı,
onu da böcək öldürməkçün almışdı.